**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**

**KOLLEGİYASI**

**QƏRAR**

**№**

**Bakı şəhəri** **09 iyul 2021-ci il**

**“2021-2023-cü illər üzrə Azərbaycan Respublikası Ailə,Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kommunikasiya Strategiyası”nınicrası barədə**

Dövlət idarəetmə sistemində aparılan hərtərəfli və davamlı islahatlar, kommunikasiya vasitələrindən istifadə imkanlarının daha da genişləndirilməsi, innovativ informasiya-kommunikasiya texnologiyalarının tətbiqi hər bir qurumda vahid kommunikasiya strategiyasının formalaşmasını və həyata keçirilməsini, eləcə də media və vətəndaş cəmiyyəti institutları ilə çevik əlaqələrin qurulmasını zəruri edir. Bu məqsədlə də Azərbaycan Respublikası Prezidenti Administrasiyası tərəfindən ünvanlanan 05.04.2021-ci il tarixli, 2/133 nömrəli məktubuna əsasən, “2021-2023-cü illər üzrə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kommunikasiya Strategiyası” hazırlanmışdır.

Yuxarıda qeyd olunanlardan irəli gələrək Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. “2021-2023-cü illər üzrə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kommunikasiya Strategiyası”nın icarsı barədə məlumat nəzərə alınsın.
2. İnformasiya və analitik araşdırmalar şöbəsinə tapşırılsın ki, “2021-2023-cü illər üzrə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kommunikasiya Strategiyası”nın həyata keçirilməsini təmin etsin.

3. Dövlət Komitəsinin müvafiq şöbələri və Komitənin nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrər Dəstək Mərkəzləri Kommunikasiya Strategiyasının Tədbirlər Planının icrasına dair rüblük hesabatları İnformasiya və analitik araşdırmalar şöbəsinə təqdim etsin.
4. İnformasiya və analitik araşdırmalar şöbəsinə tapşırılsın ki, Dövlət Komitəsi yanında İctimai Şuranı və Qadın Resurs Mərkəzlərini Kommunikasiya Strategiyasının Tədbirlər Planının icrasına cəlb etsin.
5. Kadr və Kargüzarlıq şöbəsinin müdiri Elmira Qurbanlı qərarın surətilə Komitənin aidiyyəti şöbələrini tanış etsin.
6. Qərarın icrasına nəzarət Komitənin sədr müavini Aynur Sofiyevaya və aparat rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**